**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 287/3** **19 may 2017-ci il**

**"2017-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin hazırlanması" barədə**

Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 4.1-ci «2017-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması» bəndinin icrası ilə əlaqədar, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov, E.Behbudova) və Kadr hazırlığı və gənclərlə iş üzrə komitə (A.Qurbanov) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış layihələri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış 2017-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramı və qrafiki təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Behbudova), Kadr hazırlığı və gənclərlə iş üzrə komitəyə (A.Qurbanov) tapşırılsın ki, təsdiq olunmuş sənədlər üzrə 2017-ci ildə auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (icazəni) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (icazəni) almamış şəxslərin Palata tərəfindən cari ildə keçiriləcək ixtisasartırma kurslarında iştirak etmələri ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Behbudova) tapşırılsın ki, 2017-ci il üzrə auditorların ixtisasartırma kurslarını tədris edən müəllimlər tərəfindən cari ilin 1 avqust tarixinədək tədris materiallarının təqdim olunması təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**